Səh. 2 Sİ – Süni İntellekt, yoxsa Saxtakar İnsan – Azər Musaoğlu
Səh. 3 Bir bəzək əşyasının keçdiyi tarixi yol – Afiq Muxtaroğlu
Səh. 5 Keçmişin izləri: Uşaqlıq xatirələri və zamanın keçişi– Elsevər Əhmədov
Səh. 6 Həyatımın incə sənəti– Banu Ramin
Səh. 2 İncəsənət qurban tələb edir, Tofiq əmi – Binəli İslamoğlu
Səh. 4 PEŞƏ TƏHSİLİ PROQRAMLARINA QEYDİYYAT MAYIN 20-NƏ KİMİ DAVAM EDƏCƏK
Səh. 7 Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu – Aleksandre Orbeliani

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 APREL
2025-Cİ İL
№ 08 (225)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## REGIONAL İNKİŞAF VƏ İNFRASTRUKTUR NAZİRLİYİNİN İKİ QURUMA BÖLÜNMƏSİ FONUNDA NAZİR İRAKLİ KARSELADZE İSTEFA VERİB



Gürcüstanda Regional İnkişaf və İnfrastruktur Nazirliyinin iki quruma bölünməsi fonunda nazir İrakli Karseladze tutduğu vəzifədən istefa verib.

Bir neçə ildir Varketili rayonunun abadlaşdırılmasında fəal iştirak edən sakrebulo deputatı Revaz Soxadze artıq yeni infrastruktur naziri təyin olunub. Regional İnkişaf Nazirliyinə isə Tiflisin keçmiş mer yardımçısı Kaxa Bekauri rəhbərlik edəcək.

Hökumətin açıqlamasına görə, qurumda islahatların aparılması prosesi təxminən üç aya yaxın vaxt aparacaq. Qeyd olunub ki, mövcud qurumun hüquqi varisinə çevriləcək İnfrastruktur Nazirliyi su təchizatı, qaz təchizatı, avtomobil yollarının tikintisi və inkişafı, tullantıların idarə olunması, internetin inkişafı və digər məsələlərə cavabdeh olacaq.

Regional İnkişaf Nazirliyi isə yüksək dağlıq rayonların inkişafı ilə məşğul olacaq, Regional İnkişaf Fondunu idarə edəcək və Regional İnkişaf və İnfrastruktur Nazirliyinin strukturuna daxil olan digər publik hüquqi şəxslərə nəzarət edəcək.

Həmçinin Gürcüstanın dövlət büdcəsinə yeni departamentlərin maliyyələşdirilməsini müəyyən edəcək düzəlişlər olunacaq.

## İRAKLİ QARİBAŞVİLİ HAKİM PARTİYANIN SƏDRLİYİNDƏN VƏ SİYASƏTDƏN GETDİYİNİ BİLDİRİB



Gürcüstanın sabiq Baş naziri, hakim Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyasının sədri İrakli Qaribaşvili vəzifəsindən istefa verib. Bu barədə İrakli Qaribaşvili partiyanın ofisində keçirdiyi brifinqdə bildirib. O, həmçinin siyasətdən getdiyini də açıqlayıb.

Qeyd edək ki, İrakli Qaribaşvili iki dəfə Gürcüstanın baş naziri olub. O, birinci dəfə 2013-cü ilin noyabrından 2015-ci ilin dekabrınadək, ikinci dəfə isə 2021-ci il fevralın 22-dən 2024-cü il yanvarın 29-dək Gürcüstanın baş naziri olub. 2024-cü il fevralın 1-də Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyasının sədri təyin edilən Qaribaşvili, həmçinin Gürcüstanın müdafiə və daxili işlər naziri vəzifələrində də çalışıb.

İ.Qaribaşvili partiya sədrliyindən və ümumiyyətlə siyasətdən getməsinin səbəblərini açıqlamayıb. Lakin yerli mətbuatın yazdığına görə, istefaya səbəb Qaribaşvili ilə hakim partiyanın digər rəhbər vəzifəli üzvləri arasında yaranmış ciddi fikir ayrılıqları olub.

## PREZİDENT XARİCİ QRANTLARI QADAĞAN EDƏN QANUNU İMZALAYIB



Gürcüstan Prezidenti Mixeil Kavelaşvili “Vətəndaşların siyasi birlikləri haqqında” qanuna edilən dəyişiklikləri təsdiqləyib.

Dəyişikliklərə əsasən, ölkədə hökumətin razılığı olmadan xarici qrantların qəbul edilməsi qadağan olunur.

Hökumətin razılığı olmadan qəbul edilən qrant üçün cərimə onun məbləğindən iki dəfə çox olacaq.

Xarici qrantın təsdiqlənməsi üçün hökumətə 10 gün vaxt veriləcək. Hökumətin qərarından şikayət edilməsi onun icrasını dayandırmayacaq. Qanunun icrasına nəzarəti isə Antikorrupsiya Bürosu həyata keçirəcək.

Beynəlxalq idman assosiasiyaları, federasiyaları və komitələri tərəfindən verilən qrantlar, eləcə də Gürcüstandan kənarda təhsil və elmi tədqiqat məqsədilə ayrılan fərdi təqaüdlər və ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatların qrantları bu qanuna daxil edilməyəcək.

Rəsmilər bu addımın dövlət institutlarını xarici müdaxilələrdən və sabitliyi pozmaq cəhdlərindən qorumağa yönəldiyini bildirirlər.

Qeyd edək ki, bu qanun ictimaiyyət və beynəlxalq təşkilatlar arasında da geniş müzakirələrə səbəb olub. Müxalifət və vətəndaş cəmiyyəti nümayəndələri qanunun QHT-lərin və medianın fəaliyyətini məhdudlaşdıracağına dair narahatlıqlarını ifadə edirlər.

Xatırladaq ki, Gürcüstan parlamenti aprelin 16-da “Vətəndaşların siyasi birlikləri haqqında” qanuna dəyişikliklərə sürətləndirilmiş qaydada baxıb və layihə üçüncü oxunuşda 80 səslə qəbul edilib.

## GÜRCÜSTAN ƏHALİSİNİN SAYI 3 704 500 NƏFƏR TƏŞKİL EDİB



Gürcüstan əhalisinin sayı 2025-ci il yanvarın 1-nə 3 milyon 704 min 500 nəfər təşkil edib. Bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 9 min 900 nəfər çoxdur.

Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb. Məlumatda bildirilir ki, 2025-ci il yanvarın 1-nə olan vəziyyətə əsasən, Gürcüstan əhalisinin 61,5 faizi şəhərlərdə yaşayır. Şəhər əhalisinin də üçdəbiri paytaxt Tbilisidə məskunlaşıb.

Ümumi əhalinin 19,2 faizi 0-14 yaş arasında, 64,2 faizi 15-64 yaş arasında, 16,6 faizi isə 65 yaşdan yuxarı olan insanlardır. Əhalinin 1 milyon 774,5 min nəfərini kişilər, 1 milyon 920,1 min nəfərini isə qadınlar təşkil edir.



# Sİ – SÜNİ İNTELLEKT, YOXSA SAXTAKAR İNSAN

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Əcəb epoxanın içindəyik. Süniləşə-süniləşə gedirik. Bu gedişlə təbiiliyimizdən bir zad qalmayacaq. Mağazaya girirsən, pomidor süni, xiyar süni (geni dəyişdirilib), düyü süni, toyuq əti süni, yağ süni... Deyilənə görə, xaricdə artıq süni ət, süni kələm, süni yumurta da satılır. Allah bizim bazarlardan iraq eləsin! “Nə yeyirsən, osan” deyiminin prizmasından baxanda, süni qidalar yeməkdən özümüz də, hisslərimiz də, əməllərimiz də, münasibətlərimiz də süniləşib. Epoxamızın süni insanı üçün təbiilik getdikcə tarixin səhifələrində tozlanmağa başlayır deyəsən. Müasir insan zəhmət tələb etməyən, zəhmətsiz yerinə yetirilə bilən, zəhmətsiz əldə edilə bilən hər şeyin asanına can atır; zəhmət çəkmək, işləmək, əkib-becərmək, qurub-yaratmaq, düşünüb-daşınmaq, duyğularını, hisslərini, əzələlərini, beynini işlədərək təbii yaşamaq əvəzinə, ver yeyim, ört yatım, gözlə canım çıxmasın deyib hər şeyin sünisini yaradır, süni dünyada özünü daha rahat hiss edir.

Süni dünyanın süniləşən insanı üçün düşünmək, fikirləşmək, dərk etmək artıq əzab-əziyyətə çevrilməyə başlayıb. İntellektual olmaq üçün zəhmət, ağıl, istedad, bacarıq tələb edən uzun yolu qısaldıb asanlaşdıran müasir insan, intellekti də – ağılı, düşüncəni, biliyi də süniləşdirdi.

Bütün bu sünilikləri kənara qoyub, diqqəti süni müəllifliyə, süni yazıya yönəltmək istəyirəm. Son zamanlar qəzetimizin imeylinə bu cür yazılar göndərənlərin sayı artıb deyə bu haqda danışmağı lazım bildim. Yazıları açıb oxuyursan, göndərənin yaşına-başına baxırsan, görürsən ki, yazı açıq-aşkar sünidir, Sİ, yəni Süni İntellek tərəfindən yazılıb. Adam Sİ-yə istədiyi mövzunu qeyd edib və o haqda məqalə yazmasını istəyib. Sİ gözünə döndüyüm də yazını nöqtə-vergülünə qədər düzgün, məzmunlu yazıb qoyub adamın qarşısına. Adam da yazının altına öz adını və soyadını artıraraq olduğu kimi göndərib qəzetin imeylinə. Çox asan bir şəkildə yəni. Bir-iki səhifəlik yazı üçün 10-15 dəqiqə vaxt sərf edirsən. 10-15 dəqiqəyə olursan yazar, məqalə müəllifi. Bir az çox əlləşsən tərcüməci də ola bilərsən, elmi iş müəllifi də, lap şair, yazıçı da. “ChatGPT”nin atasına rəhmət!

Əlbəttə, yazının insan və ya Sİ tərəfindən yazıldığını yazı-pozu adamları birinci cümlədən başa düşürlər, yazının yazılması bir yana, kim tərəfindən redaktə olunması və ya korrektə olunmasını da başa düşmək çətin deyil. Yaxşı, redaktəni, korrektəni başa düşdük. Olsun. Zamanla ayaqlaşmaq-zad məsələsi... Bəs bu cür yazıları qəzetlərə, saytlara göndərib çap olunmaq istəyənlərin məqsədi nədir? Necə başa düşək?

Ümumiyyətlə, yazmaq bacarığı olmayan biri niyə məqalə yazmalıdır, çap olunmalıdır? Süni İntellektə yazı yazdırıb öz adı ilə qəzetdə, saytda çap elətdirməklə bu adamlar yalnız və yalnız özlərini aldatmış olurlar. Onlar elə düşünməsinlər ki, Sİ-dən çırpışdırdıqları yazıların plagiat olduğunu “yazılarını” göndərdikləri qəzetlərin, saytların redaktorları, oxucuları başa düşmürlər, bilmirlər. Axı, niyə özlərini biabır edirlər, özlərini aldadırlar. Məyər bacardıqları başqa iş yoxdurmu ki, həmin işlə məşğul olalar, özlərini bacardıqları işlə ifadə edələr. Axı, sizə kim deyib ki, mütləq yazı yazmalısınız, çap olunmalısınız? Bu öhdəliyi sizə kim qoyub ki, özünüzü biabır edirsiniz. Mənə çatmır, vallah, çatmır, bir adam bacarmadığı işi niyə görməlidir ki? Yazımı yazmaq istəyirsən, canın cəhənnəm, yaz, səhvlərlə yaz, zəif yaz, öz fikirlərini, düşüncələrini, hisslərini yaz, özün ol... Daha Sİ-yə yazı yazdırıb öz adınla qəzetə, sayta niyə göndərirsən? Deyim, qonorara görə bu hərəkəti edirsən, yalan olar. Verdiyimiz qonorar nə elə bir böyük puldur, nə də sənin o pula ehtiyacın var. Bəs nədir qarnının azarı, dərdin nədir? Niyə aldadırsan özünü? İmtahanlardan qorxmursanmı?..

Vallah, Süni İntellektin də epoxasını çıxardırsınız, adam day bu qədər də saxtakar olmaz! Yazının, müəllifin sünisini görəcək günlərimiz də var imiş...



# İNCƏSƏNƏT QURBAN TƏLƏB EDİR, TOFİQ ƏMİ

Binəli İSLAMOĞLU
binaliislamoglu@gmail.com

Keçənlərdə Tofiq əmi (ad şərtidir) mənə deyir ki...

Gəlin ilk öncə Tofiq əmini sizə tanıdım. Tofiq əminin heç bir təhsili yoxdur, heç teatrdan da anlamır. Amma Tofiq əminin çoxlu pulu, maşınları, obyektləri var. Məhlədə hamı ona müəllim deyir, məndən başqa (Biz onsuz da heç bir təhsili olmayan, pulu olan adama müəllim deməyə öyrəşmişik). Nə isə. Tofiq əmi deyir ki:

– “Nəyinə lazımdır teatr? Sənin yaşındakıların biznes obyektləri, altında ən bahalı maşınları var, gərək vaxtında başqa işlərlə məşğul olaydın”.

– “İncəsənət qurban tələb edir, deyə bir söz var, Tofiq əmi. Amma bu, səhnədə yıxılmaq, qaçmaq, ən riskli hərəkətləri etmək deyil. İncəsənət həyatını bu sənətə həsr etmək, ona qurban verməkdir”, – deyə cavab verirəm. Garçi Tofiq əmi mənim bu sözlərimi o qədər də başa düşmür.

Teatr Tofiq əminin dediyi firma, bahalı maşınlar və çoxlu pul qazanmaq yolu deyil, məhz sənətə ömrünü sərf etməkdir. Özüm də bilirdim ki, ümumiyyətlə, teatr sahəsində böyük qazanc yoxdur. Mən bu peşəni sevərək seçmişəm. Yadımdadır, teatra ilk gəldiyimdə Emin müəllim, biz ona uzun plaş geyindiyinə görə “matrisa” deyirdik, bizə deyirdi: “Ay bala, əgər bu sənətə pul qazanmağa görə gəlmisinizsə, burada pul yoxdur, gedin başqa işlə məşğul olun”.

Bu da müəllimin bizə verdiyi “motivasiya” idi. Bəlkə də bir çoxunuz düşünəcəksiniz ki, düz deyib. Amma qurbanlar olmasa cəmiyyətimiz üçün sağlam düşüncəli tələbələr yetişməyəcək. Biz qurban olmağı seçdik. Bu gün teatr fədailəri məhz bu qurbanlar olmasa mədəniyyət sahəmiz məhv olacaq. İnsanlar hələ də teatr mədəniyyətinin cəmiyyətimiz üçün nə qədər vacib olduğunu dərk edə bilmirlər.

Stanislavskinin dediyi kimi: “Teatr – həyatın güzgüsüdür”. Biz nə qədər baxırıq bu güzgüyə, baxa bilirikmi? Nə isə, gələk əsas məsələyə.

Keçən tamaşalardan birində uşaqlar səhnəyə çıxanda musiqinin səsini yavaş-yavaş artırmağa başladım. Birdən qulağıma səhnədən başqa, tamam fərqli bir musiqi səsi gəldi. Sən demə, Tofiq əminin həyat yoldaşı evdə izləyə bilmədiyi serialı mədəniyyət evinin zalında, özü də tamaşa zamanı səsini yüksəldərək izləyirmiş. Gərçi çox acıqlandım, amma səhnədən çıxa da bilmirdim ki, gedib deyəm: “Söndürün telefonu!” (Halbuki tamaşa başlamamışdan qabaq telefonların səssiz edilməsini dörd dəfə xahiş etdim). Axırda məcbur qalıb musiqinin səsini yüksəltdim. Amma nə xeyiri? Guya heç nə olmamış kimi sonra da telefonla öz şəklini çəkməyə başladı. Onun üçün nə teatr, nə də uşaqlar maraqlı idi, elə Tofiq əmi üçün də.

Yaxşı, biz teatra niyə gedirik?

Bu gün cəmiyyətdə mövcud olan bir çox problemi biz məhz teatr vasitəsilə canlı səhnədə nümayiş etdiririk. Əziz Nesinin də dediyi kimi: “Teatr cəmiyyətin aynasıdır”. Yaxşı, biz tamaşaya baxanda düşünürükmü, hiss edirikmi ki, yazar, rejissor, aktyor bizə səhnədən nə deməyə çalışır? Yoxsa siz də bəziləri kimi teatra getdiyinizi göstərmək üçün sadəcə selfi çəkdirib statusunuzda paylaşmaq üçünmü teatra gedirsiniz? Yaxşı, bəs tamaşadan nə anladınız? Nə hiss etdiniz?..

Çox təəssüf ki, bu gün bir çox insan teatr və kinoya sadəcə selfi çəkdirmək üçün gedir. Halbuki teatr canlı bir orqanizmdir və onun etik qaydalarına riayət etmək vacibdir. Tamaşa zamanı səhnədən canlı yayım açmaq, yanındakılarla danışmaq, telefonla məşğul olmaq, istədiyi vaxt ayağa qalxıb zalda gəzmək – bütün bunlar teatrın ruhuna zidd olan hərəkətlərdir. Bu cür davranışlar tamaşaya və digər tamaşaçılara qarşı birbaşa hörmətsizlikdir. Teatr səhnəsi diqqət və hörmət tələb edir, çünki orada canla-başla çalışan sənətkarlar tamaşaçılara öz mesajlarını çatdırmağa çalışırlar. Tamaşanı bəyənməyə bilərsən, zövqlər müzakirə olunmur deyiblər. Zalı sakitcə tərk edə bilərsən, amma əgər hər dəfə zala girib-çıxırsansa, bu, artıq teatr sənətinə qarşı hörmətsizliyini və bu sənətə zərrə qədər də marağının olmadığını göstərir.

Çox təəssüf ki, həm cəmiyyətimiz, həm də bəzi qurumlar teatr mədəniyyətinə lazımi dəstəyi vermirlər. Biz hələ də mədəniyyətimizin inkişafı üçün deyil, lazımsız yerlərə və tədbirlərə pul xərcləməyi daha üstün bilirik. Yazımı Meyerxoldun bu gözəl sözü ilə bitirirəm: “Teatr insanın ruhunu formalaşdıran ən güclü sənətdir”.

Bəli, ruhumuzun formalaşması üçün bizə teatr lazımdır!

# BİR BƏZƏK ƏŞYASININ KEÇDİYİ TARİXİ YOL



Sırğa qədim çağlardan üzü bu yana hər iki cinsdən insanların qulaqlarına taxılaraq müəyyən dini, siyasi, sosial mənaları ifadə etmiş, bu günsə əsasən qadınların istifadə etdiyi bəzək əşyasına çevrilmişdir. Tarixən müxtəlif toplumlarda sırğanın həm qadınlar, həm də kişilər tərəfindən taxıldığını müşahidə etmək mümkündür. Bundan başqa, sırğa onu daşıyan kişinin kimliyini anladan bir işarə, bir rəmz kimi özünü göstərir.

Əski türklərdə müəyyən bir səbəbdən ailədə oğul tək olardısa, onun qulağına sırğa taxılırdı. Əsgəri xidmət zamanı qoşun başçıları sırğalı bir döyüşçü görüncə ona təhlükəli tapşırıq vermirdilər. Nəslinin sonuncu kişi nümayəndəsi isə iki sırğa taxırdı. Türk törəsi nəslini davam etdirməsi üçün belə döyüşçünü xüsusilə qoruyurdu. Türklər törələrinə sadiq qalaraq qızğın döyüşlər getdiyi məqamda belə ailənin nəslini davam etdirməsi qayğısına qalırdı.

Bu ənənə cüzi fərqlə rus kazaklarında da mövcud olmuşdur. Kazaklarda sırğanın uşağın sol qulağına taxılması onun ailədə bir övlad olmasını, sağ qulağında olması isə öz soyunda sonuncu olmasını göstərirdi. Belə uşaqların döyüşlərdə iştirakı qadağan edilirdi.

Yaxın keçmişə qədər Qarayazının Nəzərli və Kosalı kəndlərində nadir hallarda da olsa oğlan uşaqlarının qulağına sırğa taxılırdı. Bizim belə bir yazını ortaya çıxarmaq cəhdimiz məhz bu faktla bağlıdır və bu kiçik faktdan yola çıxdığımızı altını cızaraq söyləməyi özümüzə borc bilirik. Ola bilsin ki, başqa yerlərdə də belə bir adətin varlığını təsdiqləyən dəlillərə rast gəlmək mümkündür. Bəs hansı hallarda oğlan uşaqlarının qulaqları deşilib, sırğa taxılırdı? Adətən ailədə doğulan oğlan uşaqlarının doğuşdan qısa müddət sonra ölməsi, eləcə də dalbadal qız uşaqlarının doğulması oğlan uşaqlarının qulağının dəlinməsinə, qulağına sırğa taxılmasına gətirib çıxarırdı. Oğlan uşağının qulağına sırğa taxmaqla insanlar şər qüvvələri çaşdırmaq istəyirdilər. Şər qüvvələrin oğlanları hədəf aldığını güman edən əski insanlar uşağın qulağına sırğa taxmaqla onun cinsi statusunu dəyişdiklərini və bu yöntəmlə uşağa sədəmə toxundurmaq istəyən şər qüvvələri yanıldıb, aldadacaqlarını düşünürdülər. Eyni adətə biz Cənubi Sibir türklərindən olan tuvalarda da rast gəlirik.

Qədim Rus dövlətində sırğa yalnız bəzək hesab olunmurdu. Onun vasitəsilə ailənin tarixini və sosial vəziyyətini müəyyən etmək mümkün idi. Sadə adamlar mis və ağacdan hazırlanmış sırğalar taxırdılar.

Moskva çarlığında, eləcə də Pyotr dövrü Rusiyasında da qulağın dəlinməsi, kişilərin sırğa taxması mövcud idi. Sırğa daha çox aşağı təbəqələrin qulağını bəzəyirdi. Onlardan ən çox xoloplar istifadə edirdilər. Qulaqlarında sırğa olması onların ağaya, sahibkara məxsusluğunun bəlgəsi idi. Xolopların Kiyev Rus dövlətində, habelə feodal dağınıqlığı dövrü knyazlıqlarında və I Pyotrun köləliyi ləğv etməsinə qədər Rusiyada hüquqsuz təbəqə və ya qul olmaları yazılı qaynaqlar vasitəsilə öz təsdiqini tapır.

Dünya xalqlarının inanclarında sırğa doğum və artım rəmzi sayılırdı. Tanrıçaların qulağı dəlik və sırğalı təsviri də bu inancla bağlı olmuşdu. Məhsuldarlıq və doğum tanrıçalarına aid edilən heykəllərin qulaqlarında sırğa olması da buna dəlalət edir.

Əski türk boylarında yetkinlik yaşına çatmış qızların toxuduqları xalı-xalça üzərində sırğa motivlərinin olması onların evlənmək istəmələrinə yozulurdu. Bu motivlər qızların ərə getmək istəklərini anladırdı. Yetkinlik yaşına çatmış qızların gələcək cehizlərinin bir parçası olacaq bu xalı-xalçalarda sırğa motivlərinin olması təbii sayılmalıdır.

Qazaxlarda və qırğızlarda sırğa saluv, yəni sırğa taxmaq ənənəsinə görə, qızı istəməyə gələrkən, onun qulağına bayquş tükü və ya sırğa taxılır, bununla da qız nişanlanmış sayılırdı. Bundan sonra başqa birinin həmin qızı istəməsi doğru sayılmırdı, bununla qulağı sırğalı qızın başının bağlı olduğu ifadə edilmiş olurdu.

Sırğanın nişanlılıq əlaməti kimi istifadə olunmasına Anadolunun bir çox türk boyları arasında bu gün də rastlaşmaq mümkündür. Göründüyü kimi, bir sıra türk xalqlarında sırğa nişanlılığın bəlgəsidir. Buna görə də, Sayan-Altay türklərində gəlinin sırqalık və ya sırqalu adlandırılması təəccüb doğurmamalıdır.

Bu gün türk xalqlarında nişanlılıq əlamətini nişan üzüyü vasitəsilə anladırlar. Nişanlılığın üzük vasitəsilə anladılmasına “Kitabi-Dədə Qorqud” boylarında da rastlaşırıq. Elmi ədəbiyyatda islam dininin türk xalqları arasında yayılmasından sonra üzüyün nişanlılığı bildirən simvola çevrildiyini irəli sürən müəlliflər də var. Onların düşüncələrinə görə, islamın qəbulundan sonra başın örtülməsi əski nişanlılıq əlaməti sırğanı görünməz etmiş və bu əlaməti üzük ifadə etməyə başlamışdır. Biz bu fikrə qatılmadığımızı bəri başdan qeyd edirik. Bildirmək istəyirik ki, başlanğıcı və sonu olmayan dairəvi əşyalar islamdan çox əvvəl Günəşin rəmzi sayılır və qoruyucu xüsusiyyətlərə malik olduqları güman edilirdi. Əski insanların dünyagörüşündə halqa sırğaların da belə bir funksiyanın daşıyıcısı olduğunu böyük bir ehtimalla söyləmək olar.

Qədim türk xalqlarında sırğa bəyliyin simvollarından biri kimi çıxış edirdi. Arxeoloji tədqiqatlar zamanı əldə edilmiş məlumatlar, türklərin yaşadıqları bölgələrdə aşkar olunmuş qayaüstü təsvirlər, habelə yazılı qaynaqlardan əldə edilən faktlar sırğanın kəmər, qılınc kimi bəylik rəmzinə çevrilməsini təsdiqləyir. Hələ eradan əvvəlki dönəmlərdə sırğanın türklər arasında hərbi rütbə bildirən vasitələrdən biri olmasını İssık kurqanından aşkar edilmiş, elmi ədəbiyyatda “qızıl döyüşçü” kimi tanıdılan türk ərəninin qiymətli sırğalarla dəfn edilməsi də təsdiqləyir. Pazırıq arxeoloji tapıntıları da sırğanın məhz bu məqsədə xidmət etdiyini aşkar şəkildə təsdiq edən dəlillərdəndir. “Kitabi-Dədə Qorqud” boylarında da sırğa kəmərlə (kur kuşak) birlikdə bəyliyin bəlgəsi kimi görünür. “Qulağı altın küpəli”, yəni qulağı qızıl sırğalı



Oğuz bəylərinin varlığı deyilənləri təsdiqləmək üçün yetərli sayıla bilər. Göktürklərə məxsus təsvirlərdə də kişilərin sırğa ilə təsvir olunması bu ənənənin daha bir təsdiqidir. Çin mənbələrində qırğız türk kişilərinin sırğa taxmaları, cəsurlarının əllərini damğa ilə bəzəmələri haqqında məlumatlara rast gəlmək mümkündür. Səlcuq xaqanı Toğrul bəyin uzun saçlı olduğu, türk hərb ənənəsinə uyğun olaraq sırğa taxdığı bəllidir. Əmir Teymurun, Qaraqoyunlu Qara Yusifin, Səfəvi hökmdarı Şah İsmayılın sırğa taxmaları da qaynaqlar vasitəsilə öz təsdiqini tapır.

Səlcuqların İran mədəniyyəti ilə tanışlığından sonra sırğanın anlamında mühüm dəyişiklik baş verir, o, yeni məna qazanaraq, bəyliklə yanaşı köləlik, ağaya bağlılıq anlamı da daşımağa başlayır. İran mədəniyyətində sırğa əsarəti, ağaya məxsusluğu bildirən işarə idi. Asılı şəxslərin qulağına taxılan halqa şəkilli sırğaların üzərində onların kimə məxsus olmalarını bildirmək üçün sahiblərinin adı yazılırdı.

İslam dininin qəbulundan sonra türk kişilərinin sırğa taxmaları seyrəlir, sırğa daşıyıcısı kişilərin sayı azalır. Fikrimizcə, bundan sonra sırğa sırf qadınlara məxsus bəzək əşyasına çevrilir. Sırğanın batini təriqətlərə məxsusluğu ifadə etmək üçün istifadə olunması da zaman keçdikcə unudulmuş, onun şər qüvvələrdən qoruma xüsusiyyəti də tarixin səhifələrində it-bat olaraq, adi ziynət əşyasına çevrilmişdir.

**Afiq MUXTAROĞLU**

# PEŞƏ TƏHSİLİ PROQRAMLARINA QEYDİYYAT MAYIN 20-NƏ KİMİ DAVAM EDƏCƏK

Peşə təhsili proqramlarına qeydiyyat 2025-ci il aprelin 28-də başlayıb və mayın 20-nə kimi davam edəcək.

Qeydiyyat onlayn olaraq **vet.emis.ge** veb-səhifəsində həyata keçiriləcək.

Peşə təhsili proqramlarına qəbulla bağlı qüvvədə olan qayda peşə təhsilinə əlçatanlığın artırılmasını və maraqlanan bütün şəxslərin peşə təhsilinə qoşulmasını təmin edir, eləcə də peşə təhsili proqramlarında təhsilini davam etdirmək istəyənlərin fərdi ehtiyaclarını nəzərə alır.

2025-ci ildə inteqrasiya edilmiş proqramlara da qəbul həyata keçiriləcək. Bu, baza təhsili olan şəxslərə peşə təhsili ilə yanaşı ümumi təhsil almaq imkanı da yaradır. Qeyd olunan proqramlarda təhsilini bitirənlərə ümumi təhsil attestatına bərabər olan peşə diplomu veriləcək.

Peşə təhsili ilə maraqlanan şəxslərə həmçinin real iş mühitində ikili (dual) yanaşma ilə həyata keçirilən proqramlar təklif olunacaq. İkili yanaşma real iş mühitində – təhsil müəssisəsində proqram tərəfindən verilən təlim nəticələrinin 50 %-dən çoxuna nail olmağı nəzərdə tutur.

2025-ci ildə təklif olunacaq peşə təhsili müəssisələri və proqramların tam siyahısı, qeydiyyat üçün təlimat 28 apreldən **vet.emis.ge** veb-səhifəsində yerləşdirilib.

Peşə təhsili proqramlarına qəbul olmaq üçün aplikantların seçim müddəti 2025-ci il mayın 21-dən iyunun 20-dək müəyyən edilib.

Peşə təhsili proqramına aplikantların seçilməsi məqsədilə təhsil müəssisəsi tərəfindən istifadə olunmuş seçim metodu/metodları haqqında məlumat proqramın izahında yerləşdiriləcək.

2025-ci ildə ali peşə təhsili və seçim üsulu kimi Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz tərəfindən təşkil olunan testlərlə müəyyən edilən orta ixtisas təhsili proqramlarında testlərin tarixləri aşağıdakı kimi müəyyən edilmişdir:

• Təbiətşünaslıq elmləri (kimya komponenti və ya fizika komponenti, yaxud biologiya komponenti) – 2025-ci il 31 may;

• Savadlılıq və kəmiyyət savadlılığı – 2025-ci il 1 yanvar;

• Aplikantlar tərəfindən sistemdə yekun seçimi qeyd etmək üçün vaxt 30 iyun – 2 iyul müəyyən edilib.

Qeydiyyatla bağlı məsləhət almaq üçün qaynar xəttə – (+99532) 2 200 220 – nömrəsinə zəng vura, yaxud info@emis.ge elektron poçtuna yaza bilərsiniz.

# TƏHSİL NAZİRLİYİ MƏKTƏBLƏRDƏ ÇİN DİLİNİN TƏDRİSİ BARƏDƏ AÇIQLAMA VERİB



Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi məktəblərdə çin dilinin tədris olunacağı ilə bağlı açıqlama verib. Məlumatda bildirilib ki, çin dili hazırda 15 məktəbdə əlavə xidmət kimi tədris olunur.

*“İctimaiyyətin məlumatlandırılması məqsədilə bildiririk ki, milli təhsil planına əsasən bütün şagirdlər üçün vacib olan, 1-dən 12-ci sinfə kimi tədris olunan ilk xarici dil ingilis dilidir. İkinci xarici dilin tədrisi 5-ci sinifdən başlayır və bu, şagird/valideynin öz istəyi ilə seçə biləcəyi istənilən dil ola bilər.*

*Məktəb şagirdə seçim etmək üçün ən azı iki xarici dil təklif etməyə məcburdur.*

*Bu gün məktəb şagirdlərinin fransız, alman, italyan, türk və ya başqa dilləri seçmək imkanı var. Hər hansı dilin tədrisi halında nazirlik müvafiq olaraq hazırlıq işləri görməli, proqramları təsdiqləməli, dərsliklər işləməli, müəllimlər hazırlamalı, tədris prosesi standartını müvafiq şəkildə idarə etməlidir.*

*İndiki mərhələdə çin dili 15 məktəbdə əlavə xidmət olaraq tədris olunur. Çin dilinin öyrənilməsinə tələbin çox olduğuna görə Tbilisi Dövlət Universitetinin Sinologiya Katedrası ilə əməkdaşlıqla müvafiq standartların yaradılması üzərində işlərə başlanılacaq.*

*Bizim məqsədimiz şagirdlərə rəngarəng seçim təklif etməkdir və gürcü dilini öyrənməyin gücləndirilməsi ilə yanaşı, yeniyetmələrin ən azı iki xarici dildə ünsiyyət qurmasının inkişafına dəstək olmaqdır”* – məlumatda deyilir.

# BU İL 39000-DƏN ÇOX ABİTURİYENT İMTAHANLARA QEYDİYYATDAN KEÇİB




Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz 2025-ci ilin vahid milli imtahanlarına qeydiyyatdan keçənlərin statistikasını yayımlayıb. Statistikaya əsasən, imtahanlara 39 mindən çox abituriyent qeydiyyatdan keçib. Abituriyentlərin çoxu üçüncü vacib fənn kimi tarix fənnindən imtahan verib. Ən az abituriyent isə incəsənəti seçib.

**Ümumi göstəricilər isə aşağıdakı kimidir:**

• Vahid milli imtahanlara qeydiyyat olan abituriyentlərin sayı – 39000-dən çox;

• Qrant müsabiqəsində iştirak etmək istəyən tələbələrin sayı – 2400-dən çox;

• Ümumi magistratura imtahanlarına qeydiyyat olanların sayı – 10000-dən çox;

• Müəllimlər və müəllim olmaq istəyənlər üçün imtahanlara qeydiyyat olunanların sayı – 24300-dən çox.

**Abituriyentlərin seçdikləri fənlərin göstəriciləri isə bu cürdür:**

• Tarix – 18900-dən çox abituriyent;

• Riyaziyyat – 13700-dən çox abituriyent;

• Biologiya – 3200-dən çox abituriyent;

• Vətəndaş təhsili – 2600-dən çox abituriyent;

• Coğrafiya – 2300-dən çox abituriyent;

• Kimya – 2100-dən çox abituriyent;

• Ədəbiyyat – 1400-dən çox abituriyent;

• Fizika – 900-dən çox abituriyent;

• İncəsənət – 200-dən çox abituriyent.

İmtahan qrafiki təsdiqlənən kimi Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin veb-səhifəsində (www.naec.ge) yayımlanacaq. İmtahanın tarixi, vaxtı və imtahan mərkəzinin ünvanı haqqında ətraflı məlumat imtahan kartında qeyd olunacaq. Kartı, güman ki, iyun ayının ikinci yarısından çap etmək mümkün olacaq.

# ŞAGİRDLƏRİ MƏKTƏBDƏ HANSI YENİLİKLƏR GÖZLƏYİR?

Gürcüstanın təhsil, elm və gənclər naziri Aleksandre Tsuladze aprelin 23-də məktəb şagirdləri üçün planlaşdırılmış yeniliklərdən danışıb.

Məlum olub ki, kompüter texnologiyaları fənni başlanğıc, eləcə də baza pilləsində olan şagirdlər üçün vacib olacaq və dəyişiklik 2025-ci ilin sentyabrından qüvvəyə minəcək.

***“İndiyə qədər kompüter texnologiyaları yalnız başlanğıc pillədə tədris olunurdu. 2025-ci ilin sentyabrından kompüter texnologiyalarının tədrisi ibtidai, eləcə də baza pilləsində bütün şagirdlər üçün vacib olacaq”,*** – deyə Aleksandre Tsuladze bildirib.

Nazirin sözlərinə görə, 4 il ərzində təhsil sahəsində aşağıdakı yeniliklər planlaşdırılır:

• Riyaziyyat fənninin gücləndirilmiş tədrisi – bütün ictimai məktəblərdə riyaziyyat və fizikanın gücləndirilməsi proqramı yaradılacaq. Ola bilsin, bu fənn şərti olaraq mexanika adlandırılsın və ilk olaraq 11-ci, 12-ci siniflərə daxil olacaq.

• 10-cu sinifdən etibarən məktəb şagirdinə seçim imkanı veriləcək – əgər o, akademik istiqamətdə dərinləşdirilmiş təhsil almaq istəyirsə, bu istiqamətlərdən birini seçə bilər. Əgər peşə yönümlü təhsilə davam etmək istəsə, Nazirliyin istəyi ondan ibarətdir ki, artıq 2025-ci ilin sentyabr ayına qədər 100-ə yaxın dövlət məktəbində peşə yönümlü inteqrasiya olunmuş proqramın seçilməsi mümkün olsun.

• Məktəblərə “STEM klubların” daxil edilməsi planlaşdırılıb. Xüsusi laboratoriyalar qurulacaq və dərs saatları başa çatdıqdan sonra könüllü olaraq məktəb şagirdlərinin STEM klub, eləcə də idman, yaxud incəsənət klublarını seçmək imkanı olacaq.

**Texnoloji istiqamətdən əlavə, şagirdlər üçün humanitar elmlər baxımından da yeniliklər nəzərdə tutulub:**

• Şagirdlərə humanitar istiqamətdə, formal, eləcə də qeyri-formal təhsil istiqamətində də məktəb klubları təklif olunacaq.

***“Humanitar təhsil çox mühümdür. Eləcə də ana dili və bizim vəziyyətimizdə gürcü dili və ədəbiyyatının tədrisi gücləndiriləcək. İlk dəfə 2025-ci ildən gürcü dili və ədəbiyyatının tədrisi ayrı-ayrılıqda olacaq. İki standart hazırlanıb, gürcü dili və gürcü ədəbiyyatı ayrılıb”,*** – deyə nazir bildirib.

***Səhifədəki məlumatlar “edu.aris.ge” və “etaloni.ge” saytlarından götürülüb. Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***

# BAKI XATİRƏLƏRİ: ÖZÜ OLMAYAN ÖZÜMÜZ



Sizi bilmirəm, mən insanalara birmənalı münasibət bəsləyirəm. Tanıdığım və ya tanımaq istədiyim adam mənim mənəvi meyarlarıma uyğun adamdırsa onun mənə münasibətindən asılı olmayaraq hesab edirəm ki, gözəldir. Əksinə, bütün gözəllik standartlarına uyğun olan şəxsiyyətsiz biri mənim üçün olmayanlar sırasında olan insanlardandır. Odur ki, mənim üçün baqqaldan müəllimə, həkimdən süpürgəçiyə ya yaxşı, ya da pis adamlar var. Bu o demək ki, yaxşıdırsa – mənim təbirimcə, mütləq hərtərəflidir, gözəldir, əksinə, pisdirsə, deməli insani kefiyyətindən camalına qədər eybəcərdir.

Bilmirəm, bu küləyinə əsib, günəşinə qızınmaq istədikləri avropalarda belə biryabırçılıqlar var, ya yox... Deyəsən əcnəbi göydə balonlarla gəzərkən, biz yellənçəyin amplitudasını (yerdən qalxdığı məsafə) zirvələr etmişik...

Yenə də o yandan başlayım. Sən demə, eybəcərləşməyin də MODASI olarmış. Faciə də odur ki, bu süni eybəcərləşməyi hiss etmədən təbliğ və təşkil edirlər. Maniken olaraq isə qurban cahillərdir. Biz genetik olaraq ata-anamızın yarısıyıq. Anamızın hədiyyə etdiyi bir kasəni, atamızın bir qələmini əmanət kimi əzizlərkən, canından can verənlərin genlərini niyə süniliklə əvəzləyək?! Bəzən təbiətdəki ekoloji və ya qidalanma səbəblərindən hardan axsaqlıqlar olur, doğrudan da təmirə ehtiyac duyulur. Bu başqa...

Bacılığım (rəfiqəm) xaricdə yaşayırdı. Yoldaşı uğurlu iş adamı idi. Üç il əvvəl mənə zəng edib soruşdu: "Bakıya qayıdırıq, artıq uşaqlar böyüyüb, istəyirəm özümə iş qurum, nə məsləhət verərdin". Bakıda bir qadın mərkəzi yarat dedim. Bütövlüklə qadınlara həsr et – xeyriyyəçilikdən dərzi kurslarına qədər, qadın klubu, dərnəkləri, hətta tibbi müayinə şöbəsi də qur... Təklifimlə, təbii, pul qazanmaqdan çox, qadınlara mənəvi və estetik dəstək yaratmaq istədim. Sən demə, uşaqlıqdan tanıdığım saf bacılığımı zamanla qiymətli kağızların qoxusu dəyişərmiş. Onlar, əlbəttə, qadın mərkəzi yaratdılar. Təbii ki, mən deyənin yalnız adı vardı. Üç mərtəbəli iaşə binası demək olar ki, tamamilə qadınlara xidmətə əsaslanırdı, amma necə?

Məni günlərlə dəvətdən sonra nəhayət vaxt tapıb yolumu mərkəzə saldım. Əlbəttə, qarşılanmam möhtəşəm idi. Uşaqlıq dostundan çox uzun illər evdar qadın olan təhsilli bacılığımı iş qadınına çevirən biri kimi təqdim olundum. Xüsusi tanışlıqdan sonra mərkəzlə tanış olduq, "modern" yeniliklər tam qarşılanmışdı: plastik əməliyyatdan dəri çəkdirməyə, qaş əkdirməkdən epilyasiyaya, dodaq doldurandan yanaq qabartdırmaq istəyənə və s.

Gəl foyedə oturaq, – dedim – 3 ildir getmişəm, darıxmışam bərbəzəkli Bakı toylarının qadınları üçün, bir az "sosyeti" qadınları görüm. Zarafatımı ciddiyə alan bacılığım elə foyedəcə çay süfrəsi açdırdı. Beləcə, bir neçə saat mən gəlib növbəyə yazılan, prosedurlar qəbul edən qadınları müşahidə etdim. Kimləri görmədim. Bir sözlə, qadınlar sanki aldıqları bir avtomobilin hissələrini dəyişdirirdilər. Həm də klassik hissəni modernlə əvəz edirdilər. Bu da nataraz bir görkəm idi, süniliyin ifratı idi.

Day dözə bilməyib dedim: "A bajı, şəhərin bütün qadınları sünilikdən məhv olub ki... Bir nəfər də olsun təbii qadın kimi qadın görmədim".

"Sənə elə gəlir. Biz artıq öyrəşmişik. Burada nə var ki. Əksinə, botokssuz, sürməsiz (tatusuz) qadına xalx birtəhər baxır e", – dedi. Hər ikimiz güldük.

Mən bacılığımı alqışladım, zamana uyğun istifadəni bacardı, əlbəttə, özü onların heç birindən istifadə etmir, etməz də, çünki fəsadları əla bilir. Mən özünü və zamanını bu axmaq adətə həsr edənləri qınadım. Əgər bu "yeniliklərdən" tək şou-biznes nümayəndələri yararlansa, vallah, heç məni narahat etməzdi, çox təəssüf ki, müştərilər (bəli, pasiyent yox, məhz müştəri) müəllimlərdən, həkimlərdən başlamış evdar xanımlara qədər var idi. Təbiətin onlara bəxş etdiyi qocalıqdan utanıb qırışlarını gizlədənləri qınadım, üzlərindəki ifadəni donduranları, gülüşə həsrət çöhrələri qınadım. Hamısı bir-birinə oxşayan simaları, cahil düşüncələri qınadım. Özü olmayan özümüzə yazığım gəldi!

P.S.

Təmənnasız şəkildə mənə yeniliklər təklif etdilər. Gülüb, sərhəddən buraxmazlar dedim, siz adamdan başqa adam düzəldirsiniz. Əslində isə, nə yaxşı sərhəd bağlıdır, yoxsa bu mərkəz səyyar şəkildə Borçalıya da gələrdi. Bəlkə gəlib, mənim xəbərim yoxdur. Heç istəməzdim.

Gəlin adam kimi adam olaq, onda çirkinliyimizlə gözəl görünəcəyik. Vallah hə...

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# KEÇMİŞİN İZLƏRİ: UŞAQLIQ XATİRƏLƏRİ VƏ ZAMANIN KEÇİŞİ



Bir zamanlar bütün uşaqlar üçün yay mövsümü azadlığın və sevincin zirvəsi idi. Hər yay tətili ilə məktəblərin bağlanması, qohumların kəndə gəlişi, bütün ailənin və yaxınların bir araya gəlməsi həyatın ən gözəl dövrünə çevrilirdi. Biz uşaqlar isə bu zamanın təklif etdiyi ən yaxşı anları dəyərləndirərək hər günü sevinc və həyəcan içində yaşayardıq. Yay azadlıq və oyunların simvolu idi. Hər anı yaşamağa, təbiətlə bir olmağa, təbiətin hər küncünü kəşf etməyə çalışardıq.

Yay fəslinin gəlməsi ilə birlikdə Bakıdan, Rusiyadan və digər şəhərlərdən gələn qohumlarımız bizləri kəndə toplayar, həyat bir anda canlanardı. Bibilərimiz, əmi uşaqları, xala uşaqları hər biri öz evindən çıxıb kəndə gələr, böyük bir ailə halında toplanardılar, qohumluq əlaqələri genişlənərdi. Kəndin həyət-bacasında oyunlar oynanar, gülüşlər duyulardı. Uşaqlıq xəyallarımızı gerçəkləşdirən o anlarda, bir-birimizlə vaxt keçirmək, yeni oyunlar kəşf etmək, meşələrə gedib şabalıd yemək, dərələrdə gəzmək, çay kənarında dincəlmək, o sadə, lakin çox qiymətli anları yaşamaq bizlərə çox böyük bir sevinc bəxş edərdi. Pikniklər olardı, təbiətin qoynunda oturub birlikdə yemək yeyər, bir-birimizə hekayələr danışardıq.

Yayı o qədər sevinclə yaşayardıq ki, günlərin nə qədər sürətlə keçdiyini hiss etməzdik. Məktəblərdə tətil olanda sevincimiz daha da artar, həyat bir başqa gözəlliyə bürünərdi. Avqust ayının sonlarına yaxın bu xoşbəxt anlar geridə qalardı. O parlaq günlər qohumların bir-bir öz evlərinə qayıtması ilə sona çatardı. Valideynlər işlərinə qayıdar, uşaqlar isə məktəblərinə, universitetlərinə dönərdilər. Həyat yenə öz axarı ilə axardı.

Nənələrimiz və babalarımız sağ idi. Axşam olduqda şam və ya lampa işığında yemək yeyərdik. Həmin vaxtlar evlərimizdə, həyatımızda başqa bir xoşbəxtlik vardı. Həm də sadə və təbii bir sevgi vardı. Texnologiya hər kəsin əlində telefon tutub daim əlaqə qurmaq imkanları yaratmamışdı. Telefon yalnız kəndin imkanlı insanlarında var idi, buna görə də uzaqdakı qohumlarla əlaqə saxlamaq üçün onların telefonlarından müəyyən bir məbləğ müqabilində istifadə edərdik. Hər zəng bizim üçün bir xəzinə kimi idi, sanki bizə verilən bir lütf idi. Qohumlarımızla hal-əhval tutmaq, onların necə olduqlarını bilmək bizim üçün böyük bir sevinc, həyəcan doğurardı. Hər zəngin bir əhəmiyyəti, xüsusi bir mənası vardı. Bu, sadəcə səsli əlaqə deyil, ruhən bir araya gəlmək, bir-birimizi hiss etmək idi.

Lakin zamanla hər şey dəyişdi, həyat dəyişdi. Telefonlar, internet, sosial media... Bu texnologiyalar həyatımıza girdi, amma bu yeni həyat ilə birlikdə fərqində olmadan biz çox şey itirdik. Keçmişdəki o sadəlik, insanın insanla yaxınlığı, bir-birinə olan səmimi münasibətlər yox oldu. Bu gün artıq hər kəsin əlində bir telefon var, amma keçmişdəki o təbii, saf və səmimi münasibətlərin əvəzi yoxdur. Biz artıq sosial şəbəkələr vasitəsilə bir-birimizə yaxın olmağa çalışırıq, amma həqiqi mənada qarşılıqlı hissləri, gözlərdəki və ya üzlərdəki ifadəni oxumaq, bir araya gəlib səmimi bir söhbət etmək artıq mümkün olmur. Keçmişdə bizlər bir-birimizə yaxın idik, hər anı bir-birimizlə dolu yaşayırdıq. Amma indiki vaxtda hər birimizin öz dünyası var və biz öz dünyamızda bəzən bir-birimizi unuduruq.

Bunu düşündükcə keçmişə olan bu nostalji hisslər daha da dərinləşir. Uşaqlıq illərinin ən qiymətli anları qəlbimizdə kök salmışdır. O anlar indi böyüyən nəsil üçün sadəcə xatirə, köhnə bir nağıl kimi qalsa da, biz öz uşaqlarımıza o gözəl illəri danışmağa çalışırıq. Bir zamanlar o gözəl, təbii, səmimi anları, oyunları, birlikdə keçirdiyimiz o şirin günləri onlara aşılamalıyıq. İstəyirik ki, onlar da bizlər kimi bir gün öz xatirələrini gözəl şəkildə xatırlasınlar və gələcəkdə bizim kimi həsrət dolu gözlərlə o illərdən danışsınlar.

Bugünümüzün reallığı bəlkə də bizə həm sevinc, həm də həsrət gətirir. Keçmişin gözəlliyini yaşayarkən gələcəyimizi qurmağa davam edirik. Gələcəyin uşaqlarına öz uşaqlığımızı, o gözəl, təbii anları, qədim oyunları və həyatın sadəliyini aşılamalıyıq. Keçmişin xatirələri ilə bağlı səmimi anlar yaratmaq bizim özümüz üçün də əhəmiyyətlidir. Bu, həm keçmişin izləri ilə bağlı dərin bağ yaratmaq, həm də gələcək nəsillərə həyatdan ən qiymətli dərsləri vermək deməkdir.

Uşaqlıq xatirələri bizim həyatımızın ən təmiz, ən dəyərli səhifələridir. İllər keçdikcə bu xatirələr bizi daha çox özünə çəkir, hər dəfə yenidən həmin anları düşünərkən bizə həyatın nə qədər qiymətli olduğunu xatırladır. Keçmişin təbii sadəliyini, bu günün sürətli və təzyiqli həyatında tapmaq bəlkə də çox çətindir, amma biz hər zaman bu sadəliyi, təbii yaxınlığı və sevgini qorumağa çalışmalıyıq. Bu, həm də gələcək üçün çox dəyərli bir irsdir. Həm biz, həm də gələcək nəsillər bu xatirələri saxlamaq üçün əlimizdən gələni etməliyik. Bu yolla keçmişlə gələcəyi birləşdirə, zamanın getdikcə sürətlə dəyişən axışında əsl dəyərləri tapmış olarıq.

**Elsevər ƏHMƏDOV**

# BAŞQALARININ FİKRİNƏ ÖNƏM VERMƏLİYİKMİ?



Gündəlik həyatımızda tez-tez bu suallarla qarşılaşırıq: "Görəsən bunu etsəm, başqaları nə düşünər?", "Bu geyim mənə yaraşsa da, görəsən insanlar bəyənərmi?", "Bu cür danışsam, gülərlərmi?" Bəzən addım atmazdan əvvəl fikirləşirik ki, başqaları bizi necə görəcək, bizim haqqımızda nə düşünəcək. Özümüz üçün yaşamaq, yoxsa başqalarının gözündə yaxşı görünmək üçün yaşamaq – bu çox vacib bir seçimdir. Bəs başqalarının fikrinə bu qədər önəm verməliyikmi? Yoxsa həyatımızı daha çox öz istəklərimizə və hisslərimizə uyğun qurmalıyıq?..

Əlbəttə, başqalarının fikri tamamilə əhəmiyyətsiz deyil. Cəmiyyət içində yaşayırıqsa, müəyyən qədər sosial uyğunlaşma da lazımdır. İnsanlar arasında münasibətlərdə qarşılıqlı hörmət və anlayış vacibdir. Lakin hər deyilən sözü qəbul etmək, hər fikrə görə öz həyat yolumuzu dəyişmək nə qədər doğrudur? Bəzən insanlar əsassız danışır, ya da qısqanclıqla tənqid edirlər. Bəziləri səni geriyə çəkməyə çalışır. Məsələn, sən bir iş görmək istəyirsən, biri deyir: "Səndə bu alınmaz", "Sən bunu bacarmarsan". Bu cür sözlər insanın ruhunu qırır, onu özündən şübhə etməyə vadar edir. Uğura aparan yol inamdan keçir və bu inam insanın daxilindən gəlməlidir. Halbuki insanın daxilində inamı, arzusu və çalışma həvəsi varsa, niyə də bacarmasın?

Biz bəzən başqalarının düşüncələri ilə çox məşğul oluruq, özümüzü fikirləşmirik. "Belə geyinsəm, mənə gülərlərmi?", "Bu fikri desəm, ayıb olarmı?", "Dərsi löhvədə danışsam, kimsə lağ edərmi?" – bu kimi düşüncələr bizi addım atmaqdan çəkindirir. Öz fikirlərimizi ifadə etməkdən çəkinirik, çünki tənqid olunmaqdan qorxuruq. Bu da öz potensialımızı tam ortaya qoymağa mane olur. Əslində isə insan əvvəlcə özünü tanımalı, nəyə ehtiyac duyduğunu, nədən zövq aldığını bilməlidir. Əgər bir insan özünü tanıyırsa, onun üçün başqalarının fikirləri ikinci planda qalır. Hər kəsi razı salmaq mümkün deyil. Biri səni çox sakit tanıyar, digəri çox danışan. Sənin geyimini biri bəyənər, başqa biri isə bəyənməz. Çünki hər kəsin zövqü və baxışı fərqlidir. Bu səbəbdən də başqalarının fikrinə uyğunlaşmaq yerinə, öz iç səsimizə qulaq asmaq daha doğrudur. Öz yolunu seçmək cəsarət tələb edir və bu cəsarət insanı azad və xoşbəxt edir.

Digər tərəfdən, tamamilə başqalarının fikirlərini görməməzlikdən gəlmək də düzgün deyil. Bəzi fikirlər bizə həqiqətən də kömək edə bilər. Məsələn, valideynlərimizin, müəllimlərimizin və yaxın dostlarımızın sözləri çox zaman bizim xeyirimizə olur. Onlar bizi tanıyır, nə istədiyimizi bilir və uğurlarımıza sevinirlər. Həqiqi dost və ailə üzvü insanı həqiqətlə başbaşa qoyur. Bir dostun deyir: "Sən çox gözəl rəsm çəkirsən, davam et". Bu cür sözlər motivasiya yaradır. Bir müəllim deyir: "Sən yaxşı yazırsan, istedadlısan". Bu da bizə güvən hissi verir və irəliləməyə kömək edir. Yaxşı niyyətli fikirlər insanın yoluna işıq tutur və onu daha da irəli aparır.

Lakin cəmiyyət arasında tez-tez işlənən bir ifadə var: "El-aləm nə deyər?" Bu söz, bəlkə də, bir çox insanın həyatını dəyişdirib. Çünki "el-aləm" dediyimiz insanlar çox zaman bizi yaxından tanımır. Onlar bizim kim olduğumuzu, hansı hissləri yaşadığımızı və nələrə dəyər verdiyimizi bilmirlər. Bu səbəbdən də onların fikri ilə yaşamaq məntiqli deyil. "El-aləmin" düşüncəsi bəzən boş narahatlıqdan başqa bir şey deyil. İnsan bir həyat yaşayır və bu həyatı başqasının düşüncələrinə uyğun deyil, öz istəklərinə uyğun yaşamalıdır. Əgər hər zaman başqasının fikrini nəzərə alsaq öz həyatımızı yaşamış sayılmırıq.

Fikir almaq, məsləhət dinləmək, səhvləri qəbul etmək gözəl və faydalı xüsusiyyətlərdir. Amma bu o demək deyil ki, öz fikirlərimizi, arzularımızı bir kənara qoymalıyıq. Öz səsini eşitmək, öz arzularını dinləmək və onlara sahib çıxmaq həyatın ən gözəl seçimlərindən biridir. Ən vacib fikir "öz fikrimizdir". Çünki bizi bizdən yaxşı tanıyan yoxdur. Əgər bir qərar verərkən içində rahatlıq hiss edirsənsə bu, sənə uyğun olan yoldur. Başqalarının düşüncəsi bu rahatlığı pozmamalıdır. Özünü dinləmək, özünü sevmək və özünü qəbul etmək – bunlar həyatda uğurun əsas açarlarıdır.

Ən gözəl yol "özün kimi olmaqdır". Əgər bir işi görmək istəyirsənsə və bu sənə xoş gəlirsə, başqasının nə düşündüyü ikinci plandadır. Öz qərarını öz gücünlə vermək daha anlamlı və təsirli olur. Əlbəttə, hörmət çərçivəsində və kobud olmadan, amma öz fikirlərini əsas tutaraq etmək daha doğrudur. Günün sonunda səni sən xoşbəxt etməlisən. Başqasının dediyi ilə hərəkət edib, sonra peşman olmaqdansa, öz qərarını verib məsuliyyət daşımaq daha sağlam yanaşmadır. Çünki uğursuz olsa belə sən öz yolunu getmisən və bu sənə dərs olub.

Unutma, sən öz həyatının müəllifisən. Sənin qələmin sənin əlindədir. Həyatını necə yazmaq istədiyin yalnız sənə aiddir. Başqasının yazdığı ssenaridə yaşamaq əvəzinə, öz ssenarini yaz. Xoşbəxtlik də, uğur da, daxili rahatlıq da özün kimi olanda gəlir. İnsanın özü ilə səmimi olması, öz dəyərlərinə sahib çıxması onun həyatını daha mənalı və dolu edir. Öz olmağın verdiyi azadlıq insanı gücləndirir və inkişaf etdirir.

Sonda belə deyə bilərəm ki, başqalarının fikrinə tamamilə göz yummaq düzgün deyil. Amma "Görəsən mənəmi güldülər?" "Dediyim sözəmi güldülər?" "Görəsən fikirimi desəm gülərlərmi?" – bu cür fikirləşmək də doğru deyil. Əsas olan özünü tanımaq, öz fikirlərinə dəyər vermək və səmimi, dürüst olmaqdır. İnsan özü kimi olduğu vaxt, ətraf da onu olduğu kimi qəbul edəcək. Çünki səmimiyyət hər zaman hiss olunur və qəbul edilir. Özün ol, özün qal və unutma, səni sən olduğun üçün sevəcəklər.

**Fatimə İBADOVA**

*Qardabani 3 nömrəli ictimai məktəbin 10-cu sinif şagirdi*

# HƏYATIMIN İNCƏ SƏNƏTİ



Mən uşaqlıqdan rəsm ilə maraqlanıram. Rəsm çəkməkdən əlavə sadə insan fiqurları ilə qısa animasiyalar yaradırdım. Rəsmi sadəcə kağız üzərində boyaların, rəngli qələmlərin, markerlərin və s. vasitəsilə şəkil çəkmək kimi görürdüm. Sonra rəsm çəkməklə daha ciddi maraqlandıqda rəsmlərin sadəcə kağız üzərində rənglərin birləşməsindən ibarət olmadığını, içərisində çoxlu mənalar daşıdığını öyrəndim.

Uşaq vaxtı rəsmlə elə ciddi maraqlanmırdım. Sadəcə mənim üçün bir hobbi idi. Rəssamlıq dərnəyinə getmək ağlıma belə gəlmirdi. Beləcə aylar ərzində rəsm dərsində çox şey öyrəndim. Özüm özümə müəllim oldum desəm daha doğru olar.

Dediyim kimi, rəsm bir çox insana sadəcə kağız üzərinə çəkilmiş insan, heyvan, əşya, bitki və s. şəkilləri kimi görünür. Ancaq hər bir rəssam, bu işi bilən bunun belə olmadığını bilir. Yəni sadəcə rəsm deyib keçmək olmaz.

Rəssamlığı özünü ifadə etməyin yollarından biri hesab edirlər. Bundan əvvəlki yazımda qeyd etmişdim ki, bir uşağın ən çox güvənə biləcəyi, hər sirrini açıb, dərdini danışa biləcəyi yalnız valideynləridir. Bəs valideyn anlamırsa uşaq dərdini kimə deməlidir? Bax, rəsm də elə bu vəziyyətdən çıxış yoludur.

Ailə içi problemlər elə ailədə qalmalıdır. Ailə içərisindəki anlaşılmazlığı qırağa çıxarmaq doğru deyil. Ancaq insan içindəkini çölə buraxmayıb, əksinə, içində saxlasa bu, onun psixologiyası üçün zərərlidir. Nəinki təkcə ailə problemləri, eləcə də cəmiyyətlə arasında olan problemlər də şəxsə pis təsir edir.

Bir çoxları bacarıb-bacarmamağından asılı olmayaraq rəsmlərdə öz içini, hisslərini təsvir edirlər – nə hiss edirlər, nə yaşayırlar və s. Məsələn, belə bir rəsm düşünək: bir uşaq kənarda kədərli tək oturub, digər yanda isə bir neçə dost əl-ələ tutub gülə-gülə gəzirlər. Rəsmin bir tərəfi rəngli çiçəklərlə, meyvəli ağaclarla, gülümsəyən günəş ilə insanda təbəssüm yaradarkən, digər tərəfi rəngsiz, solğun haldadır... Belə bir rəsm bizə çox şeyi izah edir: Məktəbdə dostları tərəfindən ayrı-seçkiliyə məruz qalan, göz ardı edilən bir uşağın özünü təsvir etdiyi bir rəsmdir.

Çox zaman hisslərimi, duyğularımı yazıyla ifadə etməkdə çətinlik çəkirəm. Bu zaman rəsm çəkməklə özümü ifadə edirəm. Bu zaman qabağıma bir qələm, bir ağ vərəq qoyub nə hiss edirəmsə onu da çəkirəm. İnsan gərək hər şeydən qabaq özünü tam anlasın. Hətta bir ay qabaq mən köhnə bir dəftərimi tapdım. Bu dəftər mənim illər əvvəl işlətdiyim bir dəftər idi. Burada mən yazılar və rəsmlərlə hisslərimdən, fikirlərimdən bəhs etmişəm.

Rəsm mənim üçün özünü ifadə ilə yanaşı bir motivasiya mənbəyidir. Sinifdə sadəcə mən rəsm çəkdiyimdən mənə sinfin rəssamı da deyirlər. Mən rəsm mövzusunda heç vaxt ümidsiz olmamışam. Yəni özümə "bacarmayacağam", "bacarığım yoxdur", "çəkə bilməyəcəyəm" və s. deməmişəm. Elə bunun nəticəsində mən hər gün yeni şeylər öyrənib, hər gün daha yaxşı çəkirəm. Rəsmimi bitirib nəzər yetirdikdə, irəliləyiş görəndə bu mənə sevinc, xoşbəxtlik verir. Sadəcə öz fikrim yox, başqalarının fikri də məni maraqlandırdığından çəkdiyim rəsmləri anama, müəllimimə, sinif yoldaşlarıma göstərirəm. Onların deyəcəyi tək bir "gözəldir" sözü məni sonrakı rəsmimə yönəldir.

Demək istədiyim budur ki, rəsmə sadəcə kağız üzərində təsvir olaraq deyil, bir insanın həyatının incəsənəti kimi baxın...

**Banu RAMİN**

*Marneuli rayonu Qacağan 1 saylı ictimai məktəbin 8-ci sinif şagirdi*

# AĞA MƏHƏMMƏD ŞAH QACARIN TİFLİS ŞƏHƏRİNƏ HÜCUMU

**ALEKSANDRE ORBELİANİ**

*(əvvəli ötən sayda)*

Çar İrakli öz gürcüləri ilə qızılbaşların önündən keçəndə heyrətə gəldilər və təəssüfləndilər: O qədər az idilər ki, niyə onların yolunu kəsmədik, tamamilə qırardıq onları. Eyni zamanda, tələsik yoldan aşağı enib, davamlı silah atəşi ilə onların arxasıyca düşdülər. Gürcülər yorğun olsalar da, heç də onlardan geri qalmadılar. Seyidabadın çəpərləri arasına qızılbaşlar da yığışdılar, hətta hücuma keçdilər, fikirləşdilər ki, bununla onları qorxudarıq, üstələyərik, amma o vaxtın gürcülərinin ürəyini nə qorxuda bilərdi, xüsusən də çar İrakli kimi adamla. Sonra ünlü igid tavad-aznaurlar onu dövrəyə aldılar, onlar müharibələrdə necə də təcrübəli idilər! Onlardan sonra bir başçı öz məiyyəti ilə birlikdə idi, sonra isə çar İrakli üçün canlarını fəda edən və o müharibədə demək olar ki, tamamilə hamısının məhv olması bir daha təsdiq edilən, özümüzdən olan yüz əlli tatar, onlardan az sağ qalan oldu. Qəzəblənən qızılbaşlar hücuma keçdilər, amma yenə də o çəpərlər arasında gürcülərdən heç nə əskildə bilmədilər. Çar İrakli öz tavad-aznaurları ilə geri döndü və üstəlik orduya qatıldılar ki, onlar da, dərhal dönüb tələsik bəri gəldilər. Çar İraklinin yenə imerelilərə ümidi vardı: Onlar haradasa burada olacaqlar. Lakin onların əhvalatını da ona söylədilər: Getdilər. Və ona şahzadə Davidin əhvalatını da danışdılar. Bədbəxt çar İrakli kədərlənərək başını o tərəf-bu tərəfə yırğaladı və daha heç nə demədi, çünki onun çarlığının gücü düşmənlər tərəfindən öldürülmüşdü. Allaha iman gətirsələr də ona düşmən olan düşmənlər tərəfindən. O namussuzlar...



O hücumdan sonra, halbuki hücuma bir daha cəsarət etməsələr də, gürcülərin üstünə dolu kimi güllə yağdırdılar, gürcülər də qorxmadan sinə gərirdilər, onlar da atəş açırdılar, amma nə olacaqdı, bir gürcüyə iyirmi piyada qızılbaş tüfəng atırdı. Beləcə, bu durumla əksər gürcülər həlak oldular və odlu-alovlu müharibədə başlarını qoydular. Hamamların yanına enənə kimi üç yüz nəfər güc-bəla ilə çarın arxasıyca getdi: Bəla saleh insanların başına gəlir. Gürcülər, siz haqlı idiniz və sizə bəla gəldi. Bu sizin qanınız Tanrı qarşısında fəryad edir...

Hamamların üstündə, yüksəklikdəki yolda qızılbaşların dəstələri gəldilər, gürcülərə hücum etmək istəyirdilər, lakin bu zaman yuxarıda qaladan topçu erməni Ağalua topları qızılbaşların üzərinə tuşladı ki, onları dayandırdı, qabağa çıxa bilmədilər və bununla da çar İrakliyə öz gürcüləri ilə keçib getməyə vaxt verildi. Çar İrakli Avlabar körpüsünün başına gələndə, şəhəri keçib Diqomi yolu ilə getmək istəyirdi, lakin yuxarıda ki, deyildi, Allahverdi bəy Yadiqaraşvili ona dedi:

– “Mənim hökmdarım, siz nə edirsiniz, körpünü keçin və Avçalanın Saquramosuna doğru buyurun, mən burada qızılbaşları qarşılayaram və onları hansı yolla yola salacağımı bilirəm, siz rahat gedin”. Tatarın kəkili var idi və başı da qırxılmışdı, özü də tatar idi *(Farslar gələndə Allahverdi bəy elə orada atla qarşıladı və ondan farsca soruşdular:*

*– “Sən kimsən?”*

*O, fars dilini yaxşı bilirdi, cavab verdi:*

*– “Mən Cavad xanın adamıyam”.*

*– “Əgər bilirsənsə, vali (çar) İrakli neylədi?”*

*– Bu tərəfə, şəhərə doğru getdi”. Və bu sözə görə, onlar şəhərə doğru yollandılar. Onlar ora gedəndə Allahverdi bəy atını qamçıladı, körpüdən atı sürətlə qaçmağa məcbur etdi və Maxata yaxınlığında çar İrakliyə yetişdi).* Bu sözə görə çar İrakli atını döndərib körpüyə tərəf getdi, amma orada atını körpünün ortasına çevirib narahat olmuş halda dilləndi:

– “Görəsən, hara gedirəm? – Gedərəm və mən də bu şəhərin camaatı arasında öz övladlarımla öləcəyəm, onların ehtirasını görə bilməyəcəyəm”.

Elə həmin an İvane Muxran batono çar İraklinin atının cilovundan tutub onu döndərdi.

Bir tərəfdən şahzadə Almasxan özünü yetirdi, o biri tərəfdən şahzadə İvane, arxadan ata Kızıx mouravisi qamçı vurdu və qəlbi qırılmış yazıq İraklini tələsik qaçırtdılar.

Onlar Maxatanin ətəyinə gələndə şəhərdən dəhşətli səslər gəlirdi. O amansız düşmənin hücum etdiyi, bələlərin baş verdiyi şəhərdə ahvay, nalə qopdu. Odur ki, çar İrakli dayandı və ağı deməyə başladı:

– “Aman Allah, mən nə görürəm, nə eşidirəm? Mənim sevimli balalarım, sizi dirçəltməyə çalışdım, mən sizin xöşbəxtliyinizin qayğısına qalırdım, sizin kiçicik kədəriniz mənim üçün ölüm idi, sevinc isə xoşbəxtlik!.. Bayramın əvəzinə bu gün sizin üstünüzü dəhşət bürüdü, bu gün sizə gəlib çatan Atad xırmanının səsini *(İordaniya diyarında dəqiq məkanı bilinməyən yer. O, “Atad xırmanı” adlanıb – Tərcüməçi)* eşidirəm. Sevinc nəğməsinin əvəzinə bu gün sizin acı ağlamağınız səmada fəryad edir. İndi nə qədər saçları dağınıq analar, qadınlar ağlayır, nalə çəkir, o səsi sən ki, eşidirsən, ey Allah? – İndi nə qədər boğazı kəsilmiş insanı ayırırlar, indi bunları görmürsən, ey Allah? Mənim qardaşlarım, mənim övladlarım, mənim dostlarım, mənim yoldaşlarım, mənim əzizlərim və mənim arzularım! Mən sizin üçün ölməli idim, siz isə mənim üçün həlak olursunuz. Axı, mən necə çaram, nə ilə sizi qorudum?”

O, ağı deyəndə onun gürcüləri arxasında dururdular və göz yaşı tökürdülər. Yenə öz kürəkəni İvane Muxran batono gəlib çox yalvararaq susmağını xahiş etdi, amma hər halda bir-iki kəlmə yenə dedi:

– “Nə niyyətim var idi, o plan ilə məğlub olsaydıq, deyərdik ki, Tanrı buyurmadı və elə narahatedici bir şey olmazdı. Niyə elə dünən Allah məni müharibədə öldürtmədi, bu dəhşətli bədbəxtliyi mənə göstərdi? Mənim üçün nə xoşbəxt ölüm olardı. Belə bir namussuz xəyanəti bilmirəm, haradan nə olmalıdır, düşünürəm və anlaya bilmirəm?”

Sözünü deyəndən sonra başını aşağı əydi və çox kədərləndi.

Bu ərəfədə bir Adribejan (Azərbaycan) xanı öz ordusu ilə dağın arxasından gəldi. Qəsdən özünü yetirdi: Qızılbaşın ordusu çar İrakliyə heç yerdə çatmasın. Xəbərdarlıq edirəm. Xan ətrafa boylandı və İraklinin bayrağını tanıdı. O, dərhal adam göndərdi, əvvəlcə salamını yetirdi, sonra o müsibətə görə çox kədərləndiyini ifadə etdi, sonra ona dedi: Təcili gedin, yoxsa böyük qoşun gəlir.

Hər bir qüvvədən məhrum olan, dəhşətli xəyanətə düçar olan çar İrakli artıq nə edə bilərdi? – Bundan artıq daha heç nə fikirləşmədi, öz gürcüləri ilə çevrilərək həmin axşam Saquramoya yollandılar və orada yorğun-üzgün və dərin kədərə qərq olmuş halda qərar tutdular.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 APREL
2025-Cİ İL
№ 08 (225)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# GÜRCÜSTANDA 9 YENİ İSTİRAHƏT GÜNÜ ELAN EDİLƏ BİLƏR



Gürcüstanda əlavə olaraq 9 kilsə bayramı qeyri-iş günü elan oluna bilər.

***"Diqqətdən kənar qalmış bir çox bayramlar var. Onlardan yeddisi dini bayram, ikisi isə böyük müqəddəslərin anım günüdür. Sonrakı bayramları nəzərdə tuturuq: Məryəmin doğum günü (21 sentyabr); Xaçın ucaldılması (Cvartamağleba) (27 sentyabr); Məryəmin kilsəyə təqdim olunması (4 dekabr); İsa Peyğəmbərin təqdim olunması (Mirkma) (15 fevral); Müjdələmə (Xareba) (7 aprel); İsa Peyğəmbərin göyə yüksəlişi (Amağleba) – Pasxa bayramından sonra 40-cı gün, həmişə cümə axşamı gününə təsadüf edir; İsa Peyğəmbərin dəyişməsi (Peristsvaleba) (19 avqust); Müqəddəs Nino günü (Ninooba) (27 yanvar); Müqəddəs Nikoloz günü (Nikolozoba) (19 dekabr).***

***Belə bayram günləri iş gününə təsadüf etdikdə vətəndaşlar işə görə kilsələrə gedə bilmirlər və dua mərasimləri demək olar ki, boş kilsələrdə keçirilir. Qeyd olunan doqquz bayramın tətil günü elan edilməsi halında dövlət tərəfindən möhtəşəm dirilişə, 12 dini bayrama, Svetitsxovlobaya, Gürcüstan üçün mühüm olan 4 müqəddəsin – Andria Birinci, Müqəddəs Nino, Müqəddəs Giorgi, Müqəddəs Nikolozun anım günlərinə hörmətlə yanaşılacaq"*** – bununla bağlı qanunvericilik təklifi ilə parlamentə Tbilisidəki Ançisxati kilsəsinin kilsə xorunun rəhbəri Zaal Tsereteli müraciət edib.

Məsələnin həlli isə Parlamentin Səhiyyə Komitəsinə tapşırılıb və hələ ki, nə qərar qəbul olunacağı məlum deyil.

Əgər məsələ müsbət həll olunsa məktəb və bağçalara aid olan mövcud tətil günlərinə yeni 9 istirahət günü də əlavə olunacaq.

*Mənbə: etaloni.ge*

# FƏXRİ VALEHOĞLUNUN AZƏRBAYCAN-GÜRCÜSTAN DİPLOMATİK MÜNASİBƏTLƏRİNDƏN BƏHS EDƏN KİTABI ÇAP OLUNUB




Türk Mədəniyyəti və İrsi Fondunun aparat rəhbəri tarix elmləri doktoru Fəxri Valehoğlunun (Fəxri Hacıyev) "Azərbaycan-Gürcüstan münasibətləri (1918-1922-ci illər): Diplomatik missiyaların fəaliyyəti prizmasından baxış" elmi kitabı işıq üzü görüb.

AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi şurasının müvafiq qərarı ilə çap olunan kitabda Cənubi Qafqazda 1918-1922-ci illərdə cərəyan edən hərbi-siyasi proseslərin axarında Azərbaycan-Gürcüstan münasibətləri araşdırılır. Həmin dövrdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan İctimai Şura Cümhuriyyətinin (Azərbaycan Sosialist Sovet Respublikası) Tiflis və Batum şəhərlərində, eləcə də Gürcüstan Demokratik Respublikasının Azərbaycandakı diplomatik təmsilçiliklərinin siyasi-diplomatik fəaliyyəti, strukturu, kadr tərkibi, təsərrüfat və maliyyə təminatı məsələləri ilkin mənbələr əsasında hərtərəfli tədqiq olunur.

Nəşrdə qeyd edilir ki, bu proseslər nəticə etibarilə Qafqazda müstəqil respublikaların yaranması ilə sonlanıb. Bu respublikaların tarixin səhnəsinə qədəm qoyması həmin ərəfədə hökm sürən çətin və mürəkkəb, eyni zamanda, əlverişli beynəlxalq şəraitlə yanaşı, mütərəqqi Azərbaycan və gürcü ziyalılarının öz xalqlarının milli şüurunun formalaşması, inkişaf etməsi uğrunda yürütdükləri uzun və ardıcıl ictimai-siyasi, ədəbi və maarifçilik fəaliyyətinin məntiqi sonluğu idi.

Kitabın elmi redaktoru tarix elmləri doktoru, professor Kərim Şükürov, rəyçiləri tarix elmləri doktorları Vasif Qafarov və İlqar Niftəliyevdir.

# AZƏR MUSAOĞLUNUN ŞEİRLƏR KİTABI ÇAP OLUNUB




"Yeni Yol" qəzetinin redaktoru Azər Musaoğlunun "Mezozoy erasında yadplanetli" adlı şeirlər kitabı çap olunub.

Tbilisidə yerləşən "Mtsignobari" nəşriyyatında 300 tirajla işıq üzü görən kitabda Azər Musaoğlunun müxtəlif illərdə qələmə aldığı şeirlər yer alıb.

Kitabın ön sözünün müəllifi və redaktoru Gürcüstan Yazıçılar Birliyi Azərbaycan bölməsinin sədri Allahverdi Təkləli, korrektoru Aynurə Əliyeva, dizayneri Elsevər Əhmədovdur.

Kitab Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının maliyyə dəstəyi ilə nəşr olunub.

"Mezozoy erasında yadplanetli" şairin ilk şeirlər kitabıdır.

Qeyd edək ki, Azər Musaoğlu 1986-cı ildə Gürcüstanın Qardabani (keçmiş Qarayazı) şəhərində doğulub. Orta təhsilini 1993-2004-cü illərdə 3 nömrəli Qardabani orta məktəbində alıb. 2004-2008-ci illərdə Tbilisi Siyasi Akademiyasının Humanitar elmlər fakültəsində təhsil alıb.

2018-ci ildən Gürcüstanda Azərbaycan dilində çıxan "Yeni Yol" qəzetinin redaktorudur.

Şeirləri gürcü və özbək dillərinə tərcümə edilib. Şeirləri və hekayələri Azərbaycanın nüfuzlu mətbu orqanlarında dərc olunub. 2014-cü ildə "Azadlıq Radiosunun" keçirdiyi "Ədəbi Azadlıq-2014" Milli Müsabiqəsində "Katarsis" adlı hekayəsi onluqda yer alıb. 2022-ci ildə "Kulis.az" saytının keçirdiyi "İlin hekayəsi" müsabiqəsində "İtburnu" hekayəsi 20-liyə düşüb. 2024-cü ildə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) və Azərbaycan Yazıçılar Birliyi (AYB) "Ulduz" jurnalı ilə əməkdaşlıq çərçivəsində keçirilən "Məişət zorakılığına yox deyək" adlı hekayə müsabiqəsində "Fidan" hekayəsi ilə qaliblərdən biri olub.

# GÜRCÜSTAN UNİVERSİTETLƏRİNDƏ GÜRCÜ DİLİNİN TƏDRİSİ MƏCBURİ OLACAQ



Gürcüstanın ali təhsil müəssisələrində gürcü dilinin tədrisi məcburi olacaq. Bu barədə Gürcüstan parlamentinin Təhsil, Elm və Gənclər Komitəsinin sədri Givi Mikanadze bildirib.

Onun sözlərinə görə, qanunvericilik təşəbbüsü artıq komitə tərəfindən dəstəklənib və iyun ayının ortalarında qanun qüvvəyə minəcək. Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi bu müddət ərzində yeni qaydalara uyğun tədris proqramı hazırlayacaq.

Təklif Tbilisi Dövlət Universitetinin professorları Nana Maçavariani və Georgi Qoqolaşvilinin təşəbbüsüdür.

Qeyd edək ki, 2005-ci ildən etibarən universitetlərdə gürcü dili fənni ləğv edilmişdi. Yeni dəyişikliklərdən sonra bu fənnin yalnız filologiya fakültəsində deyil, bütün fakültələrdə məcburi tədrisi nəzərdə tutulur.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.